**İntizar Mirzəli qızı Qurbanova**

**UOT:331.5; JEL:E27;I25.**

# Azərbaycanda peşə təhsili sisteminin müasir vəziyyəti və inkişaf perspektivləri

***Xülasə***

*Məqalədə Azərbaycanda peşə təhsili sisteminin əsas problemləri, peşə təhsilinin inkişafı və məşğulluğa təsirinin yaxşılaşdırılması kontekstində əsas prioritetləri təsnifləşdirilmiş, peşə təhsili sisteminin inkişafına nail olmaq və məşğulluğa təsirini yaxşılaşdırmaq üçün bir sıra məsələlərin yerinə yetirilməsinin vacibliyi qeyd edilmişdir. Peşə təhsilinin məşğulluğa təsirinin artırılmasının başlıca məsələləri kimi işəgötürənlərlə sıx əməkdaşlığın yaradılması, yeni iş yerlərinin açılması və müxtəlif maliyyə mənbələrinin prosesə cəlb edilməsinin vacibıiyi xüsusi vurğulanmışdır. Məqalədə həmçinin işçi qüvvəsinə tələbatı artacaq sahələr və gələcək peşələrlə bağlı proqnoz verilmişdir.*

***Açar sözlər:*** *peşə təhsili, peşə, məşğulluq, işəgötürənlər, əmək bazarı, işçi qüvvəsi, proqnoz.*

## Giriş

Tədqiqatlardan aydın olur ki, son illərdə, xüsusilə də birinci məşğulluq strategiyasının həyata keçirilməsindən başlayan dövrdən (2005-ci ildən) bu tərəfə ölkəmizdə yeni qanun layihələrinin və dövlət proqramlarının hazırlanması və icrası nəticəsində işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalmış, açılmış yeni-yeni iş yerləri sayəsində əhali arasında məşğulluq artmışdır. Əmək bazarına diqqət yetirdikdə yeni-yeni peşələr üzrə kadr tələbatının artdığının şahidi oluruq. Bu tələbatların ödənilməsi üçün peşə təhsili sistemində yeni ixtisas standartları hazırlanır və əvvəllər respublikamız üçün qeyri-ənənəvi olan sahələrin, eləcə də əvvəllər inkişaf etmiş əməktutumlu sahələrin (pambıqçılıq, tütünçülük, baramaçılıq) yenidən inkişafda olduğunu nəzərə alaraq həmin peşələrə uyğun ixtisaslı kadr hazırlığı labüdləşir. Sözsüz ki, bunlar ölkə iqtisadiyyatındakı inkişafın və artımın nəticəsidir. Müasir mərhələdə əsas problemlər kadr hazırlığının tələb olunan keyfiyyətdə aparılması, rəqabətqabiliyyətli iş qüvvəsinin formalaşması, əmək ehtiyatlarının mümkün qədər səmərəli istifadəsi ilə bağlıdır. Son illərə qədər peşə təhsili sisteminin normativ-hüquqi bazasının möhkəmləndirilməsi qarşıda duran əsas məsələlərdən idi. Bu səbəbdən, xüsusilə, 2016-2020-ci illərdə peşə təhsilnin inkişafı və əmək bazarı ilə əlaqələrinin sıxlaşdırılması istiqamətində əsaslı yeniliklər edilmiş, mütərəqqi sosial layihələr və qanunlar hazırlanmış və həyata keçirilməyə başlanmışdır. İqtisadiyyatın on bir prioritet sahələrini, o cümlədən peşə təhsilini əhatə edən strateji yol xəritələrinin hazırlanması xüsusi qeyd olunmalıdır. 2018-ci ildə Peşə təhsili Qanunun və yeni Məşğulluq Qanununun qəbulu, Milli İxtisas Çərçivəsinin təsdiqi peşə təhsili sisteminə və məşğulluğa dair nəzərdə tutulmuş bir çox məsələlərin həlli yollarını özündə cəmləşdirdi. Nəzərdə tutulan layihələrin səmərəli icrası ilə peşə təhsili sahəsindəki problemlərin aradan qaldırılması və sistemin məşğulluğa müsbət təsir edəcək səviyyəyə çatdırılmasına nail olmaq olar.

## Peşə təhsilinin əsas problemləri və həlli yolları

Respublikamızda demək olar ki, məşğulluğun artırılması məqsədi daşıyan bütün üsullardan istifadəyə cəhd edilir. Yerinə yetirilən bütün dövlət proqramlarının prioritet istiqamətlərinin tərkibində məşğulluq məsələsinin həlli baxımından peşə təhsilinin inkişaf etdirilməsinin xüsusi yeri vardır. Tədqiqatın gedişində görmək olur ki, peşə təhsilinin məşğulluğa həm birbaşa, həm də dolayı təsirləri vardır. Lakin peşə təhsilinin inkişafını



*©İntizar Mirzəli qızı Qurbanova AMEA İqtisadiyyat İnstitutu, dissertant. E-mail:q.intizar@mail.ru.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

ləngidən problemlər hələlik çoxdur. Peşə təhsilinin əsas problemlərini aşağıdakı kmi qruplaşdırmaq olar:

- Maddi-texniki bazanın köhnəliyi;
- Tədris binalarının 40%-ə qədərində məcburi köçkün ailələrinin məskunlaşması, yataqxana imkanlarının olmaması;
- Təhsil proqramları, dərs vəsaitlərinin, avadanlıqların yenilənməsi zərurəti;
- Peadqoji heyətin və istehsalat ustalarının təkmilləşdirilməsi zərurəti;
- İdarəedici heyətin innovativ yanaşma, təşəbbüskarlıq baxımından ixtisasının artırılması və ya yenidənhazırlanması tələbatı;
- Maliyyə təminatının zəifliyi, əlavə maliyyə mənbələrinin (investisiyalar, ianələr, istehsaldan əldə edilən gəlir və s.) cəlb edilməsinin çətinliyi;
- Peşəyönümü işinin zəifliyi (formallıq), kifayət səviyyədə aparılmaması;
- Peşə təhsili müəssisələrinə maraqların aşağı olması;
- Kadr hazırlığı səviyyəsinin əmək bazarının tələblərindən geri qalması;
- İşəgötürənlərlə səmərəli əməkdaşlığın qurulmaması;
- Məzunların iş təminatının az olması.

Peşə təhsilinin inkişafı və məşğulluğa təsirinin yaxşılaşdırılması kontekstində əsas prioritetləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- ⇨ tam orta məktəblərdə şagirdlərə ilkin peşə vərdişlərinin öyrədilməsi, bir neçə məktəbin birgə istifadə edə biləcəyi emalatxanalar, təcrübə sahəsi və s. yaradılması;
- ⇨ orta məktəblərdə şagirdlərin doğru peşə seçiminə kömək edə biləcək mütəxəssisin (konsaltinq xidməti) olması;
- ⇨ şagirdlərin məlumat ala bilməsi üçün peşələr və peşə təhsili müəssisələri haqqında müfəssəl izahlı elektron bazanın təşkili və əlyetərliyi;
- ⇨ distant təlim üsullarının tətbiqi ilə gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyinin genişləndirilməsi;
- ⇨ əmək bazarının müntəzəm öyrənilməsi, sorğuların təşkili, proqnozlaşdırmaı;
- ⇨ işəgötürənlərlə səmərəli əməkdaşlıq üsullarından (vergi güzəştlərinin edilməsi, qrantlar və s.) istifadə;
- ⇨ əlavə maliyyə mənbələrinin, investisiyaların, sponsorların cəlb olunması;
- ⇨ tədris istehsalat birliklərinin yaradılması;
- ⇨ peşə təhsili müəssisələrinin tələbələrinə əsgərlikdən möhlət hüququnun verilməsi;
- ⇨ pedaqoji və mühəndis heyətinin təkmilləşdirilməsi, peşəkar kadrların tədrisə və istehsalat təliminə cəlb edilməsi;
- ⇨ yeni dərslik və metodik vəsaitlərin, eləcə də orta məktəblərdə əmək təlimi dərslərində istifadə ediləcək əyani vəsaitlərin hazırlanması;
- ⇨ peşə standartlarının tətbiqi (peşə standartları – konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur);
- ⇨ işsizliyin azaldılması üçün kənd yerlərində əhalinin yaşayış yerinə yaxın ərazilərdə peşə hazırlığı və təlimi kurslarının təşkili və daha çox insanın cəlb edilməsi;
- ⇨ beynəlxalq əməkdaşlıqlardan səmərəli istifadə;
- ⇨ idarəetmənin təkmilləşdirilməsi, əlaqədar tərəflərin yaxından iştiraka cəlb olunması.

Peşə təhsili sisteminin inkişafına nail olmaq və məşğulluğa təsirini yaxşılaşdırmaq üçün aşağıdakı məsələlərin yerinə yetirilməsi vacibdir:

- ➢ Təhsilin digər səviyyələri ilə sıx əlaqələrin qurulması, qarşılıqlı kömək, məsləhət xidmətlərinin təşkili;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- İlkin əmək vərdişlərinin öyrədilməsinə, peşələri tanıtma və peşəyönümü işinə dair məhsuldar fəaliyyətin təşkili;
- Orta məktəblərin yuxarı siniflərində ilkin peşələrin öyrədilməsi imkanlarından səmərəli istifadə olunması, yeni yolların axtarışı;
- Kadr bazasının gücləndirilməsi məqsədilə peşəkar mütəxəssislərin cəlb edilməsi, davamçıların hazırlanması, stimullaşdırılması;
- Yerlərdə, o cümlədən kəndlərdə maarifləndirici, peşə təlimi kurslarının təşkili, xalq sənətkarlığı peşələri ilə məşğul olanların siyahıya alınması, stimullaşdırılması, bir bölgədə yayılmış sənətkarlığın digər regionlarda da əlçatan olması, nəsillərə ötürülməsi üçün şagirdlər hazırlamağa təşviq olunması;
- Peşə təhsili sahəsində sahibkarlıq və innovasiya fəaliyyətinin təşviqi;
- İşəgötürənlərlə səmərəli əməkdaşlıq yaradılması üçün beynəlxalq təcrübədə sınaqdan çıxmış metodların tətbiqi və tənzimləyici qanunvericilik və qaydaların tətbiqi;
- Peşə təhsilində dual təhsil və şagirdlik yerlərinin alınması, firmada təhsil formalarının tətbiqi imkanlarının araşdırılması yönündə sahibkarlarla səmərəli əlaqələrin qurulması, əmək həyatına erkən başlamaq ehtiyacı olan gənclərin belə imkanlardan faydalanmasına şərait yaradılması;
- Əmək bazarının tələbatlarının müntəzəm öyrənilməsi, həm regional, həm də respublika səviyyəsində monitorinqlərin təşkili, müfəssəl informasiya bazasının yaradılması, operativ yenilənməsi;
- Peşələrə və kadr sayına yaranacaq tələbatların proqnozlaşdırılması və informasiya bankına daxil edilməsi;
- Peşə təhsilinin imkanları haqqında, eləcə də tələbatlı peşələr və vakansiyalar barədə informasiya bazasının hamı üçün əlçatarlılığının təmini;
- Əmək bazarında peşələrə qarşı dəyişən tələbatların ödənilməsi üçün çevik proqramların hazırlanması, peşələrin variativliyinin və çoxfunksiyalığının təmini;
- “Peşə təhsili haqqında” qanuna müvafiq olaraq çox səviyyəli peşə təhsili sisteminin təşkili, eləcə də informal və qeyri formal əldə edilmiş və yaxud əmək prosesində qazanılmış peşələr barədə bacarıqların sertifikatlaşdırılmasının təşkili;
- Əmək ehtiyatları və əmək qabiliyyətli əhalinin daha çox hissəsinin lazımlı peşələrə yiyələnməsi yönündə işlər aparılması;
- Təhsil alanların işlə təminatının yaxşılaşdırılması, bütün imtiyazlardan və imkanlardan fiziki sağlamlığı məhdud olan şəxslərin də yararlanmasına və cəmiyyətə adaptasiyasına kömək göstərilməsi;
- Məşğulluq idarələrinin məsuliyyət və səlahiyyətini artırmaqla səmərəli fəaliyyətə cəlb edilməsi və nəticəyə görə stimullaşdırılması;
- Regional Peşə Tədris Mərkəzlərinin hər bölgədə yaradılması;
- Yerli idarəetmə orqanlarının və biznes strukturlarının da yaxından iştirakını stimullaşdıran Təhsil klasterlərinin təşkili;
- İdarəetmədə səlahiyyətlərin ötürülməsi, öhdəçiliklərin bölüşdürülməsi;
- Təşəbbüskarlığın artırılması üçün istənilən səviyyədə qabaqcıl işin qiymətləndirilməsi.

Gözlənilən hədəflərə çatmaq üçün peşə-ixtisas təhsili sistemində kadr hazırlığı, ixtisasartırma və yenidən hazırlanma işinin təkmilləşdirilməsi, mühəndis-pedaqoji heyətin qiymətləndirilməsi yolu ilə onların maddi stimullaşdırılması, səriştə və nəticə əsaslı differensiallaşdırılmış əməkhaqqı sisteminin formalaşdırırlması, peşə-ixtisas təhsili sisteminin nətcəyönümlü fəaliyyəti üçün əmək bazarının dəyişən tələblərinin mütəmadi öyrənilməsi və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mütərəqqi təhsil formalarından istifadə etməklə fasiləsiz peşə təhsili sisteminin yaradılmalsı əsas məsələlərdəndir. İstər peşə təhsili sisteminin inkişafında, istərsə də əhalinin sosial müdafiəsi və məşğulluğu sahəsində internetin və rəqəmsal texnologiyaların imkanlarından mümkün qədər səmərəli faydalanmaq lazımdır. Bu baxımdan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində elektron vakansiya bankının yaradılması [1] gənclərin layiqli iş tapmasında öz müsbət təsirini göstərə bilər. Qanunda nəzərdə tutulmuş qaydada və operativ şəkildə həm işaxtaranlar haqqında dolğun informasiyaların elektron bazası, həm də vakansiyalar haqqında konkret tələblərin bir mənbədə cəmlənməsi və müntəzəm yenilənməsi səmərəli məşğulluğun artmasına gözlənilən tövfələri verə bilər. Lakin təəssüf ki, işəgötürənlər tərəfindən formallıq xatirinə vakansiyaların Məşğulluq alt sisteminə yerləşdirilməsi halları mövcuddur, bu da həmin tədbirin əhəmiyyətini aşağı salır. Qeyd edək ki, məşğul əhalinin tərkibində peşə təhsili olanların xüsusi çəkisi 5,5 faizi keçmir. Əgər informal və qeyri-formal əldə edilmiş və əmək prosesində qazanılmış peşə bacarıqlarının sertifikatlaşdırılması təmin edilərsə həmin göstərici xeyli artmış olar. Peşə və ixtisas təhsilindən kənarda qalmış gənclərin peşə təhsilinə cəlb olunması üçün görülən tədbirlər isə hələlik istənilən nəticəni vermir. Peşə təhsili sistemində son vəziyyət barədə məlumat Peşə Təhsili üzrə Dövlət Agentliyindən götürülmüş sorğuya görə aşağıdakı kimidir: peşə təhsili müəssisələri hazırki vaxtda 40000 nəfər kontingenti əhatə etmək gücünə malikdir. Lakin qəbul planı 21000-ə yaxın bir rəqəm təşkil edir, o da heç vaxt ödənilməyib. Aşağıdakı diaqramda bunu daha aydın görə bilərik.

**Qrafik 1.**

**Peşə təhsili müəssisələrinə qəbul planının yerinə yetirilməsi göstəriciləri**






Hazırda peşə təhsili müəssisələrinin maddi-texniki vəziyyətinin zəif olması da şagirdlərin peşə təhsilinə marağının azlığına səbəb verir. Belə ki, son illərdə yalnız 7 müəssisə təmir olunub, 40-da məcburi köçkünlər yaşayır, 44 məktəb yaxşı vəziyyətdədir, yalnız 35-də yataqxana imkanı (912 tələbəlik) vardır. Agentlik fəaliyyətə başladıqdan sonra strateji yol xəritəsində nəzərdə tutulduğu kimi optimallaşdırma aparılaraq 55 təhsil müəssisəsinin bazasında 24 Peşə Təhsili Mərkəzi yaradılmışdır. 2021-ci ilin əvvəlinə olan məlumata görə 24 Peşə Təhsili Mərkəzi, 1 Peşə Tədris Mərkəzi, 16 peşə liseyi, 22 peşə məktəbi və cəzaçəkmə müəssisələri nəzdində 9 peşə məktəbi olmaqla 72 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Müsbət haldır ki, Cənubi Koreya dövlətinin dəstəyi ilə birgə yeni Peşə Təhsili Mərkəzi tikilib fəaliyyətə başlamışdır. Daha 4 müəssisənin tikintisi planlaşdırılmışdır. 2021/2022-ci tədris ilində 72 peşə təhsili müəssisəsində 120 ixtisas üzrə 24623 nəfər tələbə təhsil alır. Ölkənin 4 regionunda 6 PTM-də 15 ixtisas üzrə yüksək texniki peşə təhsili səviyyəsində 840 nəfər təhsil alır hansı ki, onlara subbbakalavr diplomu veriləcəkdir [2]. Təsnifata yeni əlavə edilmiş elə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ixtisaslar vardır ki, kütləvi peşələrə aid deyil, konkret sahəyə aiddir (metropoliten işçisi, aviasiya avadanlıqları təmirçisi və s.), şagirdlər bu peşə ilə harada işləyə biləcəkləri barədə məlumatsızlıqdan və ya işlə təmin oluna bilməyəcəklərini düşündüklərindən onlara az müraciət edirlər. Bu cür peşələrə uyğun kadrlar hazırlanması tamamilə sifarişə əsaslanmalıdır, iş yeri ilə müqavilə bağlanılmalı, istehsalatda təcrübəyə geniş yer verilməlidir. İstehsalatda şagirdlik yerlərinin alınmasına əsaslanan peşə təhsili burada tətbiq edilməlidir.

**Peşə təhsilinin məşğulluğa təsirinin artırılmasının başlıca məsələləri**

Peşə təhsili alanların sayının artırılması hələ o demək deyil ki, məşğulluq səviyyəsi artacaq. Bu problemin həlli üçün iki mühüm məsələ diqqət mərkəzində olmalıdır: işəgötürənlərin yaxın əməkdaşlığı və yeni iş yerlərinin yaradılması. İşəgötürənlər peşə təhsilli kadrların hazırlanmasında bilavasitə iştirak etməsələr keyfiyyət istənilən səviyyədə olmayacaq, ikinci tərəfdən, yeni iş yerləri olmasa bu kadrlar harada işləyəcəklər? Sadəcə olaraq diplomlu işsizlərin sayı artacaq. 1999-cu ilin aprelində Seulda keçirilən texniki və peşə təhsili üzrə UNESKO-nun ikinci Beynəlxalq Konqresi texniki peşə təhsilinin müasir və gələcək dünyadakı mərkəzi yerini müəyyənləşdirən bir yanaşma hazırladı. Konqres materiallarında qeyd edilir ki, "texniki peşə təhsili və təlimi gələcəyə körpüdür, amma bu körpü məşğulluq yoluna aparmalıdır, əks təqdirdə əlavə problemlər yaratmış olarıq" [3]. 2019-cu il yanvarın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında prezidentimiz yeni iş yerlərinin yaradılması barədə bildirmişdi: “Biz bir neçə il bundan əvvəl ənənəvi sahəmiz olan xalçaçılığı sürətlə inkişaf etdirməyə başlamışıq. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, gənclər cəlb olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də var. İslahatlar nəticəsində kənd təsərrüfatı istehsalı böyük dərəcədə artacaq. Artıq iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində yaxşı nəticələr var” [4]. Dövlət başçımızın qeyd etdiyi sahələrin inkişaf etdirilməsi diqqət mərkəzində olduğundan ümidverici haldır ki, orada yeni iş yerləri yaradılacaq, bu da həmin sahələr üçün peşə təhsilli kadrlara yaranacaq tələbatdan xəbər verir. Həmin istiqamətlərə görə də, ixtisaslı kadrlara ehtiyac artacaq, inkişafı nəzərdə tutulan sahələr üçün tələbatlı peşələr barədə proqnoz apararaq qəbul planını artırmaq olar. Digər tərəfdən, artıq bu bir reallıqdır ki, torpaqlarımızın böyük hissəsi işğaldan azad olunub. Torpaqlarımız itirilən zaman 1990-cı illərdə 300 mindən artıq iş yeri də itirilmişdi, 12 peşə məktəbinin bazası dağıdılmışdı, deməli, hazırda orada yaşayışın bərpa olunması üçün işçi qüvvəsinə ehtiyac artır, infrastruktur bərpa olunduqdan sonra isə 100 minlərlə yeni və daimi iş yerləri yaradılacaq. Eləcə də peşə təhsili sisteminin şəbəkəsi genişlənəcək.

Gələcək illərdə daha çox hansı peşə və ixtisaslara və nə qədər tələbat olacağını dəqiq bilmək və yaxşı proqnoz vermək üçün iqtisadiyyatda yaradılacaq müəssisələr və perspektiv iş yerləri barədə müfəssəl məlumat bazasına malik olmaq lazımdır. Bu cür məlumatları işəgötürənlər, sahibkarlar özləri qabaqcadan Peşə Təhsili üzrə Dövlət Agentliyinə bildirməlidir ki, həmin tələbatlara uyğun iş aparılsın. Belə bir məlumat bzasına malik olmadığımızdan apardığımız təhlillər, işəgötürənlərdən götürülmüş sorğular, şəxsi müşahidə və mülahizələrimiz əsasında və işğaldan azad olunmuş şəhər və rayonlarımızın potensialını nəzərə alaraq peşələrə yaranacaq tələbat barədə ümumi proqnoz verməyə çalışacağıq.

**Gələcək peşələrlə bağlı proqnoz.**

Son iki ildə koronavirus pandemiyası ilə bağlı bəzi peşələrə tələbat azalmış, bəzi yeni peşələrə isə ehtiyac artmışdır. Pandemiya dövründə ən çox tələbatı aşağı düşən peşələr aşpaz, ofisiant, mühafizəçi, gözətçilər olmuşdur. Proqressiv Təhsil İnstitutunun ekspertlərinin rəyinə görə pandemiya bitdikdən sonra peşələrə tələbatda bir sıra dəyişikliklər olacaq: təhlükəsizlik



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

işçiləri təhlükəsizlik sistemi operatorları ilə əvəz ediləcək, bununla bağlı proses avtomatlaşdırılacaq. Məişət xidməti ustaları - santexniklər, mebel ustaları, eyni zamanda həyat üçün zəruri olan digər peşələrə tələb və ehtiyac dəyişməz qalacaq. Kütləvi şəkildə uzaq formatdan işə keçid və elektron platformalar prosesi rəqəmsallaşdırma mütəxəssislərinə, proqramçılara, sosial media, marketinq mütəxəssislərinə və menecerlərə tələbatı artıracaq. Çoxları uzaq formatda işləməyə davam edəcək və rahat ev ofisini təchiz etməyə köməklik göstərilməsi üçün idarəetmə mütəxəssisləri və daxili dizaynerlər tələb olunacaq. İşəgötürənlər arasında aparılmış sorğular son illərdə iqtisadiyyatın prioritet sahələri olan kənd təsərrüfatı, sənaye, turizm, İKT üzrə mütəxəssislərə ehtiyacın artdığını göstərir. Təbii ki, həmin sahələrdəki iqtisadi artım peşə təhsilli kadrlara olan ehtiycı da artırır. Deməli, gələcək illərdə də kənd təsərrüfatı, turizm, İKT, mədəni xidmət sahəsində peşə təhsilli kadrlara tələbat yüksək olacaq. İşğaldan azad olunmuş torpaqlarımızda yaşayışın bərpa edilməsilə bu tələbatlar daha da artacaq (xüsusilə də kənd təsərrüfatı, turizm, xidmət sahələri üzrə). Ona görə də aşağıdakı sahələr üzrə kadrların hazırlanması diqqət mərkəzində olmalıdır:

- İKT və elektronika sahəsində kadrlara ehtiyac var və bundan sonra daha da artacaq. Pandemiya dövrü göstərdi ki, rəqəmsal texnologiyalar üzrə mütəxəssislərə ehtiyac artır və hər kəsin bu texnologiyalardan istifadə bacarıqlarının artırılmasına ehtiyac var.
- Elə peşələr vardır ki, onlara hər zaman, hər yerdə ehtiyac var. Bunların bir çoxu orta məktəblərdə öyrədilə bilər. Məsələn, dərzi, bərbər, məişət cihazlarının təmirçisi, kompüter istifadəçisi və s.
- Turizm imkanları geniş olan bölgələrdə profilə uyğun peşə təhsili müəssisələrinin yaradılması və peşəkar kadrların hazırlanması məqsədəuyğundur. Azad olunmuş torpaqlarımızın turizm potensialının genişliyini nəzərə alsaq, həmin bölgələrdə bu tipli Peşə Təhsil Mərkəzlərinin tikilməsinə böyük ehtiyac var.
- Qarabağ, Kəlbəcər-Laçın bölgələrində aqrar-emal, əlvan metallurgiya, yeyinti və yüngül sənaye, tikinti sahələri üçün kadrlar hazırlanmalıdır.
- Kənd təssərrüfatı texnikası, robototexnika, maşın və avadanlıqlardan istifadə və təmiri üzrə müvafiq sayda yüksək ixtisaslı texniki peşə kadrlarının hazırlanması labüddür. Bir neçə bölgədə aqrosənaye parklarının nəzdində texniki- peşə təhsili verən məktəblər yaradılmalıdır. Eləcə də nəqliyyat vasitələrinin təmiri üzrə mütəxəssislərin hazırlanması aktual olaraq qalır.
- Kənd təsərrüfatı üçün heyvandarlıq üzrə mütəxəssislərin hazırlanması (o cümlədən baytarlar) rayonların tələbatları hesaba alınaraq davam etdirilməlidir. Bitkiçilik, arıçılıq, ətraf mühitin mühafizəsi üzrə, həmçinin kənd təsərrüfatından əldə edilən meyvə, tərəvəzin və heyvandarlıq məhsullarının emal sahələri üzrə mütəxəssislər hazırlanmalıdır.

Kənd təsərrüfatı üzrə ixtisaslaşmış rayonların ənənəvi sahələri bərpa olunmalıdır. Məsələn, Şəkidə baramaçılığı, ipəkçiliyi inkişaf etdirməklə həm iqtisadiyyatımız, həm də ölkə əhalisi üçün böyük fayda əldə etmək olar. Yəni əldə edilən baramadan ipək hazırlayan müəssisələr, ipəkdən hazır geyim və s. tekstil məhsulları istehsal edən fabriklər yaradılmalı (eynilə də pambıqçılıq sahəsində), bununla da regionlarda çoxlu iş yerləri açmaq, insanları öz yaşadığı bölgədə işlə təmin etmək mümkündür. Təbii ki, bütün bunlar peşə təhsili sisteminin də inkişafına təkan verir. Sonralar iri istehsalat birliklərinin nəzdində texniki peşə məktəblərinin açılması da nəzərdə saxlanılmalıdır. Məhz bu yollarla məşğulluğu artırmaq və peşə təhsilinin ona təsirini yaxşılaşdırmaq mümkündür. Ümumiyyətlə, iqtisadiyyatımızın inkişafı, məşğulluğun artırılması, iqtisadi təhlükəsizliyin qorunması, iş qüvvəsindən səmərəli istifadə edilməsi üçün mütləq respublikada istehsal olunan məhsulların və xammalın son



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

istehsal prosesinə, hazır istehlak malları, əmtəə səviyyəsinə qədər öz ölkəmizdə hazırlanmasına çalışmalıyıq, eləcə də ixrac potensialımızı artırmalıyıq.

**Nəticə**

Bazar iqtisadiyyatı şəraitində peşə təhsili sisteminin inkişafı yalnız işəgötürənlərin dəstəyi ilə mümkündür. O cümlədən də daha çox iş yerlərinin yaradılması lazımdır. Müasir iqtisadi şərait, peşə təhsili müəssisələrinin zəif maddi-texniki bazası, maliyyənin azlığı, işəgötürğnlərin kadrlara olan çoxsaylı tələbləri, lakin onların hazırlanmasında az iştirakı, həm gənclərin və valideyinlərin, həm biznes nümayəndələrinin peşə təhsilinə marağının istənilən səviyyədə olmaması peşə təhsili sisteminin inkişafını ləngidir. İlkin dövr üçün aşağıda sadalanan məsələlərin həyata keçirilməsi zəruri hesab olunur:

- Respublikamızda peşə təhsilinin nüfuzunun artırılması məsələsi prioritet məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur. Buna görə ictimaiyyat arasında ayrı-ayrı peşələrin nüfuzunu qaldırmaq üçün təbliğat xarakterli tədbirlərə ehtiyac vardır. Digər sənət adamları kimi fəhlə kadrların və kənd təsərrüfatı zəhmətkeşlərinin də müvafiq şəkildə stimullaşdırılması (dövlət səviyyəsində təltif edilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması, Milli Məclisdə təmsil olunması və s.) vacibdir. Onların cəmiyyətdə nüfuza sahib olması daha çox gənci fəhlə peşələrinə cəlb edə bilər.
- Tam orta məktəblərin bazasında ilk peşə təhsilinin verilməsi gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyini artırmaq üçün ən səmərəli vasitə hesab oluna bilər. Daha çox istifadə olunan məişət və elektron cihazların təmiri (televizor, telefon, kompüter, elektrik cihazları, qaz istismarı avadanlıqları və s.), mədəni xidmət sahələri (bərbər, aşpaz, dərzi), kompüter operatoru və s. peşələr üzrə kadrlara hər zaman ehtiyac olduğunu nəzərə alaraq çox maddi vəsait tələb etməyən bu cür peşələrin orta məktəblərdə öyrədilməsi mümkündür. Xüsusilə kənddə yaşayan gənclərin peşə təhsili ala bilməsi və iş təminatı üçün tam orta məktəbin son siniflərdə ilk peşə təhsilinin təşkili vacibdir.
- Peşə təhsilinin məşğulluğa təsirini yaxşılaşdırılmaq üçün peşə təhsilinin regional səviyyədə inkişaf etdirilməsinə çalışmaq lazımdır. Bunun üçün, regionlarda gənclərin peşə öyrənməsi və iş təminatının yüksəldilməsi məqsədilə yerlərdə peşə təhsili müəssisələri dövlət və biznes strukturlarının vəhdətdə fəaliyyətini nəzərdə tutan Təhsil klasterlərinin yaradılması məqsədəuyğundur.
- Yerli və xarici investisiyaların prioritet sahə kimi peşə təhsili sisteminə yatırılmasının təşviqi ilə peşə təhsilinin keyfiyyətinin və kontingent sayının artırılması, eləcə də məşğulluğun yaxşılaşdırılması mümkündür. Bunun üçün Dövlət tenderlərin keçirilməsi, qrantlar, vergi güzəştlərinin edilməsi, öhdəliklərin qoyulması və s. vasitələrdən istifadə edə bilər.
- İşəgötürən müəssisələrə vergi güzəştlərinin edilməsi ilə motivasiya etmək olar ki, onlar şagirdlik yerləri açsınlar və sonradan həmin gəncləri işlə təmin etsinlər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Məşğulluq haqqında Qanunu: [Elekrton resurs] // Bakı: № 1196-VQ, 29 iyun 2018-ci ildə qəbul edilmişdir (1 may 2020-ci il tarixdə olan dəyişiklik və əlavələr). URL: http://www.e-qanun.az/framework/39846
2. https:// www.vet.edu.gov.az /az/news/
3. Второй Международный конгресс по техническому и профессиональному образованию: [Електронный ресурс] / – Сеул. Апрель 1999 г. URL: https://unesdoc. unesco.org/ark:/48223/pdf. 0000117403_rus.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

4. Azərbaycan Respublikası Prezidentinin çıxışları. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. https://www.president.az

***Интизар Мирзали Гурбанова***

***Настоящее состояние системы профессионального образования в Азербайджане и перспективы развития***

***Аннотация***

*В статье классифицируются основные проблемы системы профессионального образования в Азербайджане, основные приоритеты в контексте развития профессионального образования и улучшения воздействия на занятость. Было отмечено важность ряда вопросов для достижения развития системы профессионального образования и улучшить его влияние на занятость. Важность налаживания тесного сотрудничества с работодателями, создания новых рабочих мест и вовлечения в этот процесс различных источников финансирования была подчеркнута как одна из ключевых вопросов в повышении воздействия профессионального образования на занятость. В статье также прогнозируются области, в которых будет расти спрос на рабочую силу, и будущие профессии.*

***Ключевые слова:*** *профессиональное образование, профессия, занятость, работодатели, рынок труда, рабочая сила, прогнозирование.*

***İntizar Mirzali Gurbanova***

***Tthe present state of the vocational education system in Azerbaijan and development prospects***

***Abstract***

*The article classifies the main problems of the vocational education system in Azerbaijan, the main priorities in the context of the development of vocational education and improving the impact on employment. The importance of a number of issues for achieving the development of the vocational education system and improving its impact on employment was noted. The importance of working closely with employers, creating new jobs and involving various sources of funding in this process was highlighted as one of the key issues in increasing the impact of vocational education on employment. The article also predicts areas where labor demand will grow and future occupations.*

***Keywords:*** *vocational education, profession, employment, employers, labor market, labor force, forecasting.*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 03.03.2022.***
***Çapa qəbul olunub: 09.03.2022.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*